Mədəniyyət.- 2021.- 5 fevral. S.8.

# "Bengü Türk"ün daha bir proqramında Vətən müharibəsindən danışılıb

Türkiyənin "Bengü Türk" televiziya kanalında yayımlanan "Azərbaycan rüzgarı" proqramının növbəti buraxılışı xalqımızın tarixi Zəfərlə yekunlaşan Vətən müharibəsinə həsr olunub.

Proqramın əvvəlində müəllif, telejurnalist, Türkiyədə təhsil alan soydaşımız Səidə Ömər son aylarda bir neçə buraxılışın Vətən müharibəsi və Azərbaycanın qazandığı Zəfərə həsr edildiyini diqqətə çatdırıb.



Proqramın budəfəki qonağı Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu olub. O, Azərbaycanın müharibədə qazandığı zəfərdən və bu mücadilədə qardaş Türkiyənin daim ölkəmizin yanında olmasından bəhs edib. Millət vəkili 44 günlük aktiv müharibə fazası və sonrakı 20 gündə 3 rayonumuzun bir güllə atılmadan azad edilməsini mühüm hadisə kimi dəyərləndirib: "Bu, xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Yəni təqribən yüz il davam edən və "Dağlıq Qarabağ" problemi adlandırılan məsələ həll edildi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu".

Proqramın digər qonağı – Müdafiə Nazirliyinin "Əsgərə xatirə kitabı" layihəsinin rəhbəri Nuranə Şıxəliyeva olub.

Verilişdə Azərbaycan sənətçilərinin Qarabağla bağlı ifaları da səslənib.

**Mehparə SULTANOVA**
**Ankara**